# FƏDAKAR FOLKLORŞÜNAS

Başqa həmkarlarım kimi mən də müəyyən vaxtlarda hekayə janrında cızma-qaralar edirəm. Bir neçə il bundan qabaq yazdığım "Gəlincik" adlı hekayəmdə bir ədəbiyyat müəllimi obrazı var. O, Qəni müəllimdir. Obrazların adının seçilməsi, yaxud tanıdığım hər hansı bir insanın adı ilə bağlı olması məndən ötrü mənalı və əhəmiyyətlidir. Amma uzun müddət Qəni müəllim adının haradan ağlıma gəldiyini düzü bilməmişəm. Bu gün professor Seyfəddin Qəniyev haqqında yazıya başlayanda tam əmin oldum ki, "Gəlincik" hekayəsindəki Qəni müəllim Seyfəddin Qəniyevin soyadının assosiasiyasıdır. Görkəmli alim Seyfəddin Qəniyev bizim ədəbi-elmi ictimaiyyət arasında folklorşünas alim kimi tanınır. Folklorşünas alimlər də gördükləri işin müqabilində müxtəlif səciyyəyə malikdirlər. Bu müxtəlifliyi aşıqların tipologiyası ilə müqayisə eləmək olar. Aşıqlar 3 cürdür: yaradıcı, ifaçı və yaradıcı-ifaçı aşıqlar. Bu mənada folklorşünasları da 3 qrupa bölmək olar: toplayıcılar, tədqiqatçılar və toplayıcı-tədqiqatçılar. Seyfəddin Qəniyev toplayıcı-tədqiqatçılardandır. Adətən, deyərlər ki, "çox oxuyan çox bilməz, çox gəzən çox bilər". Bunu bəzən yalnız ölkəbəölkə gəzmək kimi başa düşürlər. Amma həmin deyimin əsl mahiyyəti el-obanı qarış-qarış gəzməyə bərabərdir. Seyfəddin Qəniyev Şirvanı qarış-qarış gəzib, o yerlərin insanları ilə görüşüb, onların qiymətləndirdidərd- sərləri ilə maraqlanıb, söylədikləri folklor nümunələrini, aşıq şeirlərini toplayaraq cild-cild kitab çap etdirib... Seyfəddin Qəniyevin aşıq yaradıcılığına marağı və məhəbbəti sistemli xarakter daşıyıb, ilbəil artıb, genişlənib və yeni-yeni ünvanlar qazanıb. Təkcə "Şirvan aşıqları" adlı kitabı yeniliklər və əlavələrlə həm 1993-cü ildə, həm 1997-ci ildə, həm də 2007-ci ildə çap edilib. Onun aşıq yaradıcılığı ilə bağlı tədqiqatlarını belə bir silsilə ilə ümumiləşdirmək olar: şirvanlı aşıq – Şirvan aşıq mühiti-Aşıq şeirinin poetikası. Bu silsilə tədqiqatçı üçün yüksələn xətlə hərəkət deməkdir: fərddən ümumiyə, ümumidən poetikaya doğru inkişaf... Seyfəddin Qəniyevin kitablarında bir söz həmişə çox böyük məhəbbətlə işlənir: "Şirvanlı!" "Şirvanlı Aşıq Hacıalı", "Şirvanlı Aşıq Ağalar", "Şirvanlı Aşıq Xanmusa", "Şirvanlı Aşıq Şakir", "Şirvanlı Aşıq Mirzə Bilal", "Şirvanlı Aşıq Barat", "Şirvanlı Aşıq Məmmədağa", "Şirvanlı Aşıq Şamil". Seyfəddin Qəniyevin elmi-publisistik yaradıcılığında "Şirvanlı" sözü olmayanda onunla bağlı başqa bir söz – "Şirvan" sözü var: "Şirvan folklor mühiti", "Şirvan aşıqları", "Şirvannamə", "Bu yol Şirvan yoludur". Seyfəddin Qəniyevin əsərlərində "Şirvan" olmayanda "Şamaxı" var. "Şamaxı alimləri", "Şamaxı şəhidləri", "1918-ci il Şamaxı Soyqırımı". Seyfəddin Qəniyevin məqalə və kitablarında Şirvan olmayanda Qobustan var. Professor Seyfəddin Qəniyevin Azərbaycan folkloruna marağı və məhəbbəti Şirvandan keçir. Seyfəddin Qəniyev qarış-qarış gəzib topladığı materiallar içərisində demək olar ki, folklorun bütün janrlarına rast gəlmək olur: əfsanə, rəvayət, bayatı, sayaçı sözlər, nağıl, dastan, alqış və qarğışlar... Onun yalnız Azərbaycan folkloru ilə bağlı yazdığı əsərlərlə yanaşı, başqa mövzularda yazdığı kitablarda da toplayıcılıq peşəkarlığı özünü aydın şəkildə göstərir; Şamaxı şəhidlərinin tərcümeyi-halı, Qobustan coğrafiyasına daxil olan kəndlər, Qobustan toponimləri, ziyarətgahlar, xanəndələr, repressiya qurbanları, Böyük Vətən müharibəsi iştirakçıları, maarif fədailəri və s. bunun ən gözəl nümunəsidir... Görkəmli alim Seyfəddin Qəniyev fədakar folklorşünasvə maarifçi kimi tanınır və həmişədə belə tanınacaqdır.



*Kamran ƏLİYEV,*
*AMEA-nın müxbir üzvü,*
*Əməkdar elm xadimi*